AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya 10

Ad__________________ Soyad__________________

* İmtahan müddəti 180 dəqiqədir.
* Hər səhv cavab öz dəyərinin ¼ - ni aparır.
* Hər sual 4 bal ilə qiymətləndirilir.
* Nəzarətçilərə cavab kartları və buraxılış vərəqələri təqdim olunur.
* Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn,bölmə,sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
* Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2024-cü il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!

24.12.2023

**1.** Afrika litosfer tavası üçün hansı fikirlər ***yanlışdır***?
1. Şimal-şərq istiqamətində hərəkət edir.
2. Cavan və qədim dağlar mövcuddur.
3. Cənubi Amerika tavası ilə ayrılma zonasında Müqəddəs Yelena adası yerləşir.
4. Hind okeanının ən dərin nöqtəsi bu tavanın sərhədində yerləşir.
5. Şelf düzənlikləri mövcud deyil.
6. Kanar, Seyşel və Andaman adaları yerləşir.
A) 1, 2, 4
B) 4, 5, 6
C) 3, 4, 5
D) 2, 5, 6
E) 1, 3, 6

**2.** Uyğunluğu müəyyən edin.

| **Yanlışdır** | **Doğrudur** |
|---|---|
| 1. Peru və Myanma ərazisindən axan çaylar iki okean hövzəsinə aiddir.<br>2. Kara və Barens dənizləri üzərində formalaşan və qış aylarında ölkəmizə daxil olan hava kütləsi dəniz-arktik hava kütləsidir.<br>3. Qneys maqmatik, mərmər isə çökmə süxurların metamorfikləşməsindən yaranıb. | 4. And, Qafqaz və Altay dağları quruluşuna görə qırışıq dağlar hesab edilir.<br>5. Merkuri və Venera planetlərinin təbii peyki mövcud deyil.<br>6. Təbiətdə ən çox yayılmış maqmatik süxurlar qranit və bazaltdır. |

A) 2, 5, 6
B) 1, 3, 4
C) 1, 2, 3
D) 2, 3, 5
E) 1, 2, 6

**3**. Kiçik Qafqaz tektonik zonasında yerləşən qoruq və ya milli parkları müəyyən edin.
A) Qarayazı, Göygöl, Türyançay
B) Eldar şamı, Göygöl, Bəsitçay
C) Hirkan, Zəngəzur, Qaragöl
D) Korçay, Zəngəzur, Ağgöl
E) Eldar şamı, Qarayazı, Qaragöl

**4**. Uyğunluğu müəyyən edin.

| № | Mexaniki emal | Kimyəvi emal |
|---|---|---|
| 1 | ağac tədarükü | şpal |
| 2 | kağız | boya |
| 3 | karton | skipidar |
| 4 | taxta-şalban | kanifol |
| 5 | mebel | boya |
| 6 | şpal | spirt |

A) 1, 2, 3
B) 3, 5, 6
C) 2, 4, 5
D) 4, 5, 6
E) 1, 4, 6

**5.** ***A*** dənizində orta duzluluğu 28 ‰, ***B*** dənizində isə 38 ‰-dir. Bu dənizlərin oxşar xüsusiyyətlərini müəyyən edin.
1. Səviyyəsindən ərazilərin mütləq hündürlüyü ölçülə bilər.
2. Hind okeanın cənub sahillərində yerləşə bilər.
3. Çaylar üçün mənbə rolunu oynaya bilməz.
4. Duzluluq səviyyələri eyni izoqalinlə göstərilə bilər.
5. Orta duzluluqları Baltik dənizinin orta duzluluğundan daha azdır.
A) 2, 4 B) 1, 3 C) 2, 5 D) 1, 4 E) 3, 5

**6**. Doğru sıraları müəyyən edin.

| № | Günəş şüalarının günorta vaxtı ilboyu yalnız cənub tərəfdən düşdüyü adalar | Günəş şüalarının günorta vaxtı ilboyu həm şimal həm də cənub tərəfdən düşdüyü adalar | Günəş şüalarının günorta vaxtı ilboyu yalnız şimal tərəfdən düşdüyü adalar |
|---|---|---|---|
| 1 | Korsika | Kalimantan | Folklend |
| 2 | Haiti | Seyşel | Odlu Torpaq |
| 3 | Saxalin | İrlandiya | Sardiniya |
| 4 | Böyük Britaniya | Maldiv | Yeni Zelandiya |
| 5 | Timor | Andaman | Kuril |
| 6 | Hokkaydo | Luson | Tasmaniya |

A) 1, 3, 6
B) 2, 3, 5
C) 1, 2, 4
D) 2, 4, 5
E) 1, 4, 6

**7.** Rum rəqəmlərilə verilmiş dağlar üçün aşağıdakı fikirlərdən hansılar doğru ***deyil***?
I Skandinaviya
II Alp
III Karpat
IV Ural
1. I və IV dağlar Şimal qütb dairəsi xətti ilə kəsişir.
2. II və III dağlar Elburs dağları ilə eyni geoloji erada yaranmışdır.
3. III və IV dağlarla eyni yaşda olan dağlara ölkəmizdə rast gəlinir.
4. II və IV dağlar yalnız bir ölkənin ərazisində yerləşir.
5. Yalnız II dağın mütləq hündürlüyü 4000-dən çoxdur.

A) 2, 4
B) 1, 5
C) 1, 3
D) 2, 5
E) 3, 4

**8.** Əgər Yer kürəsi xəyali oxu ətrafında 1°-ni 3 dəqiqəyə dönsəydi, XVIII saat qurşağının qərb sərhədi hansı coğrafi uzunluqda yerləşərdi?
A) 15°ş.u.
B) 10°q.u.
C) 85°q.u.
D) 97,5°q.u.
E) 82,5°q.u.

**9**. Xəritə-sxemdə təsvir edilmiş adalar litosfer tavalarının konvergent sərhədində yerləşir. Bu adaların üzərində dayanan müşahidəçi gecə vaxtı buludsuz havada səmaya baxarkən Qütb ulduzunu (Polaris) görə bilər. Bu adalar üçün doğru ***olmayan*** fikirləri müəyyən edin.



1. Fəaliyyətdə olan vulkanlar mövcuddur.
2. İnkişaf etməkdə olan ölkənin ərazisidir.
3. Mülayim işıqlanma qurşağında yerləşir.
4. Yerli vaxtı ölkəmizin yerli vaxtından geridir.
5. Bu adalarda yerləşən ölkə, dünyanın sahəsinə görə ən böyük ölkəsi ilə su sərhədinə malikdir.
6. Musson küləkləri müşahidə edilmir.

A) 1, 3, 5  B) 2, 3, 6  C) 1, 3, 6
D) 2, 4, 6  E) 2, 4, 5

**10**. Xəritəyə əsasən hansı vizual təhlili aparmaq ***olmaz***?




1. atmosfer təzyiqi
2. okean suyunun duzluluğu
3. buludluluq
4. havanın temperaturu
5. süxurların yaşı
6. təbii zonalar

A) 2, 5, 6 B) 2, 3, 4 C) 1, 3, 4
D) 2, 4, 6 E) 1, 3, 5

**11.** Rusiya Federasiyası tərkibində olan türk dövlət qurumlarını qruplaşdırın.

I Sibir
II Şimali Qafqaz
III Ural-Volqaboyu

a. Çuvaşiya
b. Qaraçay-Çərkəz
c. Altay
d. Başqırdıstan
e. Çeçenistan
f. Tıva (Tuva)
h. Kabarda-Balkar

A) I-c, d; II-b, h; III-a, f
B) I-c, d; II- a, b, e; III-f, h
C) I-a, f, c; II- b, d; III- e, h
D) I-c, f; II-b, h; III-a, d
E) I- f, h; II-b, c; III-a, d

**12**. İki inzibati rayonla və iki xarici ölkə ilə həmsərhəd olan inzibati rayonları müəyyən edin.

A) Kəngərli, Gədəbəy, Şəki
B) Şərur, Qax, Tovuz
C) Ağstafa, Zaqatala, Zəngilan
D) Xaçmaz, Samux, Qəbələ
E) Daşkəsən, Culfa, Cəbrayıl

**13.** Respublikamızın iqtisadi rayonları üçün doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Qarabağ iqtisadi rayonu yalnız bir xarici ölkə ilə həmsərhəddir.
2. Gəncə-Daşkəsən iqtisadi rayonunda kükürd ehtiyatları mövcuddur.
3. Mərkəzi Aran və Qazax-Tovuz iqtisadi rayonlarının hər ikisindən Kür və Araz çayları axır.
4. Respublikamızın şimal ucqar nöqtəsi Şəki-Zaqatala iqtisadi rayonunda yerləşir.
5. Mil-Muğan iqtisadi rayonu heç bir xarici ölkə ilə həmsərhəd deyil.

A) 2, 5 B) 3, 5 C) 1, 4
D) 1, 3 E) 2, 4

**14.** Xəritə-sxemə və cədvələ əsasən uyğunluğu müəyyən edin.




| № | Ölkələr | Ümumi xüsusiyyətlər |
|---|---|---|
| I | 1, 2, 4 | Respublika idarəetmə formasına malikdir. |
| II | 2, 4, 5 | Əhalisi eyni dil qrupuna aiddir. |
| III | 3, 4, 5 | Sitrus bitkiçiliyi inkişaf etmişdir. |
| IV | 2, 3, 6 | “Böyük iyirmiliyə” (G-20) daxil olan ölkələrdir. |
| V | 1, 3, 4 | Unitar inzibati-ərazi quruluşuna malikdir. |
| VI | 3, 5, 6 | Şərqi Avropa regionuna aiddirlər. |

A) I, IV, V
B) I, II, V
C) III, IV, VI
D) II, III, IV
E) II, V, VI

**15.** Cədvələ əsasən uyğunluğu müəyyən edin

| № | Çaylar | Doğru fikirlər | Yanlış fikirlər |
|---|---|---|---|
| 1 | Nil | Mənsəbi ilə mənbəyinin yerləşdiyi ərazi eyni iqlim qurşağında yerləşir. | Mavi Nil qolu Viktoriya gölündən başlayır. |
| 2 | Dnepr | Yerləşdiyi ölkə Bolqarıstan ilə həmsərhəddir. | Mənsəbi Don çayının mənsəbi ilə eyni dənizdir. |
| 3 | Parana | Sutoplayıcı hövzəsi iki işıqlanma qurşağında yerləşir və aid olduğu okeanın sahəsi genişlənir. | Yerləşdiyi materikdə musson iqlim tipinə rast gəlinir. |
| 4 | Mekonq | Düşməsi Volqa çayının düşməsindən daha böyükdür. | Banqladeş ərazisindən keçir. |
| 5 | Kolorado | Yukon çayı ilə eyni okean hövzəsinə aiddir. | Dib eroziyanın təsiri nəticəsində yaranan relyef formaları yoxdur. |
| 6 | Murrey | Hind okeanı hövzəsinə aiddir və yerləşdiyi ölkə iki yarımkürədə yerləşir. | Mənsəbi Xuanxe çayının mənsəbi ilə eyni okeanda yerləşmir. |

A) 3, 4, 5
B) 1, 2, 6
C) 2, 3, 5
D) 2, 3, 6
E) 1, 4, 5

**16.** Bədo, Cimi, Turşsu, İlisu mineral bulaqlarının yerləşdiyi inzibati rayonları müvafiq olaraq sıralayın.
A) İsmayıllı, Qusar, Şuşa, Zaqatala
B) Şamaxı, Quba, Xocavənd, Qax
C) İsmayıllı, Quba, Şuşa, Qax
D) Ağsu, Xaçmaz, Laçın, Şəki
E) Ağsu, Qusar, Xocavənd, Zaqatala

**17.** Xəritə-sxemə əsasən Qapıcıq zirvəsinin, Heydərabad qəsəbəsinin, Batabat gölünün yerləşdiyi müvafiq inzibati rayonlar:




A) 6, 4, 1
B) 2, 5, 1
C) 1, 7, 3
D) 6, 7, 1
E) 2, 5, 4

**18.** ***A** çayının yerləşdiyi materikdə gecə və gündüzün adi növbələşməsi pozulmur və bu materik üç işıqlanma qurşağında yerləşir. Eroziya bazisi Neva çayının eroziya bazisi ilə eyni okeandır. Ruapexu vulkanı ilə eyni işlqlanma qurşağında yerləşir.*
Mətndə verilmiş ***A*** çayı ilə bağlı hansı fikirləri doğru hesab etmək ***olmaz***?
1. Mak-Donnel dağları ilə eyni materikdə yerləşirlər.
2. Mənsəbi mülayim işıqlanma qurşağında yerləşir.
3. Sahəsi fasiləsiz olaraq kiçilən (qədim) okeanın sutoplayıcı hövzəsinə aiddir.
4. Aid olduğu materik mülayim iqlim qurşağında yerləşmir.
5. Pataqoniya yaylası ilə eyni yarımkürələrdə yerləşir.
6. Axdığı ərazi platformadır.

A) 2, 4, 6
B) 1, 3, 5
C) 2, 3, 6
D) 1, 2, 5
E) 4, 5, 6

**19.** Eyler- Venn diaqramının köməyi ilə uyğun eraları müəyyən edin.




a. Üç əsas dağəmələgəlmə (qırışıqlıq) baş vermişdir.
b. Şimali Amerika və Afrikada bu erada yaranmış dağlar mövcuddur.
c. Kopetdağ və Krım dağları yaranmışdır.
d. Üç geoloji dövrə ayrılır.
e. Pangeya Lavrasiya və Qondvanaya parçalanmışdır.
1. Arxey
2. Proterozoy
3. Paleozoy
4. Mezozoy
5. Kaynozoy
A) I - 4; II - 3
B) I - 5; II - 3
C) I - 5; II - 4
D) I - 2; II - 1
E) I- 3; II – 2

**20.** Böyük Qafqaz, Kiçik Qafqaz və Naxçıvanın dağlıq əraziləri üçün səciyyəvi olan landşaft tipini müəyyən edin.
A) subalp çəmənləri, dağ-meşə
B) yarımsəhra, dağ-meşə
C) nival, tuqay meşələri
D) quru çöl, subalp çəmənləri
E) alp çəmənləri, meşə

**21.** XIII və XX saat qurşaqlarının hansı oxşar cəhəti VIII saat qurşağı üçün fərqlidir?
1. Üç yarımkürədə yerləşir.
2. Keçdiyi okeanlardan biri dörd yarımkürədə yerləşir.
3. Üç materik ərazisindən keçir.
4. Şimal yarımkürəsinin ən aşağı temperaturunun müşahidə olunduğu məntəqənin yerləşdiyi materikdən keçmir.
5. Keçdiyi materiklərdə mütləq monarxiya idarəetmə formasına malik olan ölkə yoxdur.
6. Eyni ölkə ərazisindən keçir.

A) 2, 3, 6 B) 1, 3, 5 C) 2, 3, 4 D) 1, 4, 5 E) 4, 5, 6

**22.** Yer kürəsinin sxemdəki vəziyyətinə əsasən doğru fikirləri müəyyən edin.




1. Respublikamızın ərazisində tropik hava kütlələri hakimdir.
2. 21,5° şimal və 68,5° cənub enliklərində yerləşən dəniz səviyyəsindəki məntəqələrdə günorta vaxtı şaquli cisimlərin kölgələrinin uzunluqları öz uzunluqlarına bərabərdir.
3. Bu vəziyyətin baş verdiyi tarixdən sonra Folklend adalarında gündüzün uzunluğu qısalmağa başlayır.
4. Bu tarixdə ölkəmizdə gecə və gündüzün uzunluğu arasındakı fərq maksimuma çatır.
5. Bu tarixdə Günəş Cənubi Amerika materikində zenitdə olmur.
6. Cənub yarımkürəsində quru səthində ilin ən soyuq ayı müşahidə edilir.
A) 1, 3, 4 B) 2, 3, 4 C) 2, 4, 6
D) 1, 2, 5 E) 3, 5, 6

**23.** Cədvəldəki uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Böyük və Kiçik Qafqaz tektonik qalxma zonalarında intensiv parçalanmış yüksək qırışıq-qaymalı nival buzlaq relyef tiplərinə rast gəlinmir. | *doğru* |
| 2 | Kap və Draqon (Əjdaha) dağlarının yerləşdiyi litosfer tavası yalnız materik mənşəlidir. | *doğru* |
| 3 | Afrika materikində ekvatorial iqlim qurşağı qərbdən-şərqə tam zolaq təşkil edir. | *yanlış* |
| 4 | Ölkəmizdə günəş radiasiyanın ən yüksək həddə çatdığı ərazilərdə, ən yüksək orta illlik temperatur müşahidə edilmir. | *yanlış* |
| 5 | Appalaç, Skandinaviya və Kap dağları geosinklinalının platformaya çevrilməsinin üçüncü mərhələsindədir. | *doğru* |

A) 3 B) 1 C) 2 D) 5 E) 4

**24.** Cədvələ əsasən doğru bəndi müəyyən edin.

| Daxili dəniz | Kənar dəniz | Adalararası dəniz |
|---|---|---|
| 1. Şimal | 4. Mərmərə | 7. İrlandiya |
| 2. Qırmızı | 5. Ross | 8. Bofort |
| 3. Adriatik | 6. Fici | 9. Tasman |

A) 4, 5, 6, 7
B) 1, 4, 8, 9
C) 6, 7, 8 ,9
D) 1, 2, 5, 8
E) 2, 3, 5, 7

**25.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| № | Şimali Amerika | № | Cənubi Amerika |
|---|---|---|---|
| 1 | Ərazisi üç yarımkürədə yerləşir və ərazisindən axan çaylarda həm raftinq, həm də avarçəkmə idman növlərini inkişaf etdirmək imkanları mövcuddur. | 4 | Yer kürəsi orbit müstəvisinə 68° meyilli olarsa Şimal tropik xətti onun şimal hissəsini kəsməz. |
| 2 | Bütün ölkələrinin Dünya okeanına birbaşa çıxışı mövcuddur. | 5 | Ərazisindən axan ən uzun çayın bolsululuq dövrü Temza çayının bolsululuq dövrü ilə nisbətən oxşardır. |
| 3 | Ərazisində Kimmeri qırışıqlığında yaranmış relyef formalarına yalnız Kanada və ABŞ-da rast gəlinir. | 6 | Yerləşdiyi litosfer tavası Qərb tərəfində yerləşən Sakit okean tavası ilə toqquşaraq And dağlarının yaranmasına səbəb olmuşdur. |

A) 1, 2, 3 B) 1, 5, 6 C) 2, 4, 5 D) 4, 5, 6 E) 2, 3, 4